**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MULTİKULTURALİZM

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Sevinc İsmayıl qızı Sultanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2024**

Dissertasiya işi AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü, professor
**Ərtegin Əbdülvahab oğlu Salamzadə**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Arif Şahbaz oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Türkan Feyruz qızı Abbasova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Fərman Yaqub oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri:
Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:
Xalq rəssamı, professor
**Salxab Isa oğlu Məmmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə multikulturalizm cəmiyyətimizin həyat tərzinə çevrilmişdir. Multikulturalizm dedikdə müxtəlif millətləri və dini inancları təmsil edən xalqların bir cəmiyyətdə yaşaması, bir-birinin milli adət və ənənələrinə hörmətlə yanaşması başa düşülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 avqust 2011-ci ildə müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimindəki çıxışında demişdir: *"Multikulturalizm nisbətən yeni anlayışdır. Mahiyyətcə bu, müxtəlif mədəniyyət və dinlərə mənsub insanların birlikdə yaşaması deməkdir... Bu, sadəcə şüar deyil... Bu, bizim həyat tərzimizdir. Bu, bizim dünyagörüşümüzdür. Biz belə yaşayırıq və belə yaşamaqla özümüzə, bölgəyə və dünyaya sübut edirik ki, multikulturalizm mövcuddur"*.[1] Əlbəttə, bu sözlər böyük mənəvi çəkiyə malikdir. Məhz buna görə də müasir Azərbaycan cəmiyyətində multikulturalizm həyat tərzinə çevrilmişdir.

Artıq 30 ildən çoxdur ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir. Bu müddət ərzində çox şey dəyişmiş, ölkəmiz qüvvətlənmiş, onun iqtisadi və hərbi qüdrəti dəfələrlə artmışdır. Bütün bunlar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu güclü Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq ideologiyasının bəhrəsidir. Qeyd etmək lazımdır ki, multikulturalizm də məhz azərbaycançılıq ideologiyasından qaynaqlanır. Ölkə Prezidentinin fərmanı ilə 2016-cı il Azərbaycanda multikulturalizm ili elan edilmişdi. 2017-ci il isə islam həmrəyliyi ili elan olundu. Bu, öz növbəsində multikulturalizm siyasətinin növbəti inkişaf mərhələsi kimi dəyərləndirilir.

Bədii mədəniyyətin digər sahələri ilə yanaşı, multikulturalizm təzahürləri təsviri sənətdə də geniş yer tutur. Azərbaycanın rəssam və heykəltəraşları özündə multikulturalizm ideyaları ehtiva edən yüzlərlə sənət nümunəsi yaratmışlar. Hazırkı tədqiqat işində onların ən dəyərli, ən qiymətli nümunələri toplanmış və bədii təhlilə cəlb edilmişdir. Maraqlıdır ki, bu əsərlərin heç də hamısı müstəqillik

[1]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında. - Bakı: RS Poliqraf, – 2017 – 527 s.

illərinə aid deyil. Əksinə, tədqiqat işində nəzərdən keçirilən əsərlərin böyük əksəriyyəti ötən əsrin ikinci yarısına aiddir. O dövrdə multikulturalizm termini işlənməsə də, rəssam və heykəltəraşların dünyagörüşündə, onların yaradıcılığında özünü aydın büruzə verirdi. Prezident İlham Əliyev demişdir: *"Multikulturalizm Azərbaycanda əsrlər boyu mövcud olub. Sadəcə, ötən dövrlərdə biz bu ifadə ilə tanış deyildik"*.[2] Məhz buna görə də özündə multikultural dəyərlər əks etdirən tarixi sənət nümunələri, bu gün bizim üçün vaxtilə olduğundan daha böyük əhəmiyyət kəsb edir.

Ötən əsrin ortalarında və ikinci yarısında bir çox Azərbaycan rəssamı öz yaradıcılığında multikultural dəyərləri əks etdirmişdir. Əlbəttə, bu rəssamların yaradıcılığı hələ o dövrdə yetərincə tədqiq edilib. Lakin onlara verilən qiymət həmin dövrün tələblərini, dünyagörüşünü əks etdirirdi. Bu qiymətdə multikulturalizm dəyərləri bir göstərici, meyar kimi mövcud olmayıb. Yalnız yaşadığımız dövrdə, ölkəmizin öz müstəqilliyini bərpa etdiyi dövrdə klassik irsə münasibətdə əsaslı dəyişikliklər baş vermiş, vaxtilə yaradılan qiymətli sənət inciləri müasirlik müstəvisində yenidən qiymətləndirilməyə başlamışdır. Təbii ki, bu sırada klassik təsviri sənət nümunələri də öncül yerlərdən birini tutur. Bu gün M.Abdullayev, B.Mirzəzadə, T.Tağıyev, V.Səmədova, E.Şahtaxtinskaya, O.Sadıqzadə və bir çox başqalarının yaradıcılığı olduqca aktual təsir bağışlayır. Zənnimizcə, bunun əsas səbəblərindən biri də bu klassik rəssamların yaradıcılığının həm də müasir görünməsidir. Başqa sözlə, vaxtilə yaradılan sənət inciləri bu gün də öz aktuallığını itirməyib və zəmanəmizdə daim diqqət mərkəzindədir. Bütün bunlar klassik irsə yeni fikir, yeni münasibət nümayiş etdirmək zərurətini ortaya qoyur.

Multikulturalizm mövzusu aktual olduğu üçün humanitar elmlərin müxtəlif sahələrində kifayət qədər ətraflı öyrənilmişdir. Ədəbiyyat, tarix, fəlsəfə, sosiologiya və digər sahələrdə aparılmış tədqiqatlar müəyyən mənada təsviri sənət problemlərini də əhatə edir. Misal üçün, Nizami irsinin araşdırılması müəyyən qədər Təbriz miniatür məktəbinin üzərinə işıq salır ki, bu da artıq sənətşünaslıqla

---

[2] Yenə orada, s. 268.

əlaqədardır. AMEA Fəlsəfə İnstitutunda Multikulturalizm şöbəsi yaradılmışdır. Belə bir şöbənin mövcudluğu multikulturalizm problemlərini müxtəlif kontekstlərdə, o cümlədən bədii mədəniyyət sahəsində öyrənməyə imkan yaradır. Ümumiyyətlə, AMEA-nın müxtəlif strukturlarında bu mövzu ilə bağlı müntəzəm surətdə tədqiqatlar aparılır. Belə ki, 2017-ci ilin oktyabrında AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin birgə təşkilatçılığı ilə 2017-ci ilin MDB məkanında "Ailə ili" elan olunması ilə əlaqədar "Ədəbiyyatda və incəsənətdə multikulturalizm və tolerantlıq" mövzusunda elmi sessiya keçirilmişdir.[3] Həmçinin AMEA Ədəbiyyat İnstitutu və Moskva Dövlət Pedaqoji Universitetinin (MDPU) Stavropol filialı tərəfindən "Multikulturalizm: meyillər və reallıqlar" kitabı işıq üzü görmüşdür ki, burada mövzu ilə bağlı bəzi problemlərə aydınlıq gətirilir.[4]

Akademik İ.Həbibbəylinin "Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr",[5] müxbir üzv Ə.Salamzadənin "Azərbaycan təsviri sənətində multikulturalizm"[6] araşdırmalarında nəzərdən keçirilən mövzu müxtəlif aspektlərdə öz həllini tapır. Həmçinin N.Ələsgərovanın Azərbaycan rəssamlarının yaradıcılığında xarici mövzunun təfsiri problemləri,[7] N.Həbibovanın "T.Salahovun əsərlərində yaradıcı fərdiliyin formalaşması",[8] "Azərbaycanın xalq rəssamı N.Əbdürrəhmanovun yaradıcılığında xarici motivlər",[9] F.Mirbağırzadənin "Nizami Gəncəvi və incəsənət

---

[3] [Elektron resurs] / URL: http://www.science.gov.az/news/open/6689

[4] [Elektron resurs] / URL: http://multiculturalism.preslib.az/az_events-IMWVRQLvY4.html

[5] Həbibbəyli, İ. Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr // Azərbaycan. – 2017, 10 yanvar. – s. 4.

[6] Azərbaycan multikulturalizmi. Dərslik. - Bakı: Mütərcim NPM, – 2017. – 416 s.

[7] Алескерова, Н.Р. Проблемы интерпретации зарубежной тематики в творчестве азербайджанских художников: автореферат дис. доктора философии по искусствоведению. / – Баку, 2012. – 26 с.

[8] Габибова, Н.Н. Становление творческой индивидуальности в работах Таира Салахова // Международная академия архитектуры стран востока. № 2 (10) – Баку: Авропа, – 2015. – с. 159-164.

[9] Габибова, Н.Н. Зарубежные мотивы в творчестве народного художника Азербайджана Н.Абдуррахманова // Международная академия архитектуры стран востока. № 2 (14) – Баку: Авропа, – 2017. – с. 152-154.

əsərlərində rəmzlərin əksi”,[10] A.Məmmədovanın “Multikulturalizmin Azərbaycan modeli: tarix, mədəniyyət və incəsənət”,[11] İ.Rəsulinin “Mədəniyyətlərarası dialoq və millilik meyarları”,[12] N.Muradovanın “Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri”[13] və başqa tədqiqatlarda problem müəyyən qədər tədqiq edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan və xarici ölkələrin bəzi rəssam və heykəltəraşlarının multikulturalizm mövzusunda yaratdığı əsərlərdir. Bu məqsədlə ötən əsrin ortalarından müasir dövrə qədər Azərbaycan rəngkarlığı, heykəltəraşlığı və qrafikası təhlil edilmiş, bu sahələrdə yaradılmış bir çox əsərin multikultural məzmuna malik olması fikri əsaslandırılmışdır.

Tədqiqatın predmetini təsviri sənətdə multikulturalızm təzahürləri təşkil edir. Tədqiqatda çoxlu sayda əsər təhlil edilmiş, onların müulikultural dəyərləri əks etməsi əsaslandırılmışdlr.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan təsviri sənətində multikulturalizm təzahürlərini aşkar etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən olunub:

- Azərbaycan təsviri sənətində multikulturalizm ənənələrini bədii-tarixi müstəvidə işıqlandırmaq;
- Rəngkarlıq, heykəltəraşlıq və qrafikada sahəsində yaradılmış multikultural məzmunlu əsərləri aşkar və təhlil etmək;
- Ayrı-ayrı rəssamların əsərlərindəki multikultural məzmunu müəyyən etmək;

---

[10] Мир-Багирзаде, Ф. Низами Гянджеви и отражение символического в произведениях искусства // - Bakı: Bakı Xoreoqrafiya Akademiyası, Sənət akademiyası - 2017. № 1 (3), - s. 29-35.

[11] Məmmədova, A. Multikulturalizmin Azərbaycan modeli: tarix, mədəniyyət və incəsənət // - Bakı: Bakı Xoreoqrafiya Akademiyası, Sənət akademiyası - 2017. № 1 (3), - s. 80-84.

[12] Rəsuli, İ. Mədəniyyətlərarası dialoq və millilik meyarları // - Bakı: Bakı Xoreoqrafiya Akademiyası, Sənət akademiyası - 2017. № 1 (3), - s. 85-90.

[13] Muradova, N. Müstəqillik dövrü Azərbaycan təsviri sənətində ənənə və müasirliyin qarşılıqlı əlaqələri // - Bakı: Bakı Xoreoqrafiya Akademiyası, Sənət akademiyası – 2017. № 1 (3), – s. 40-47.

- Klassik incəsənətə aid olan, ötən əsrin ortalarında və ikinci yarısında yaradılmış əsərləri müasirlik müstəvisində təhlil etmək və yenidən qiymətləndirmək;

- Azərbaycanda yaşayan digər millətləri təmsil edən rəssamların bədii yaradıcılıq xüsusiyyətlərini tədqiq etmək;

- Azərbaycan təsviri sənətində özünü büruzə verən multikultural məzmunu hərtərəfli əks etdirmək;

- Xarici rəssam və heykəltəraşların Azərbaycanla bağlı əsərlərində milli məzmun və xarakteri öyrənmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını tarixi-müqayisəli təhlil və strukturun təsviri sənətin növlərinə görə bölünməsi prinsipi təşkil edir. Belə ki, tədqiqatda ardıcıl olaraq XX əsrin ortalarından tutmuş müasir dövrədək olan bədii proseslər bu və ya digər rəssamın yaradıcılığı nümunəsində nəzərdən keçirilir. Struktura gəlincə, qeyd olunduğu kimi, burada fəsil bölgüsü təsviri sənətin üç növünə istinad edir. Bunlar rəngkarlıq, qrafika və heykəltəraşlıqdır.

Vurğulamaq vacibdir ki, tədqiqatın tarixi-müqayisəli metodu bütün fəsillər üzrə eyni dövrü əhatə etmir. Doğrudur, dissertasiyanın ümumi müddəti XX əsrin ikinci yarısından müasir dövrədək olan zamanı əhatə edir. Lakin təsviri sənətin növləri daxilində bu zaman nisbəti bir qədər dəyişilir. Misal üçün, rəngkarlıq və qrafikada ötən əsr xeyli əhatəli, müasir mərhələ isə nisbətən məhdud şəkildə nəzərdən keçirilir. Bunun əsas səbəbi ötən əsrdə multikultural nümunələrin rəssamlıqda daha geniş yayılması ilə izah olunur. Həmin dövrdə multikulturalizm ifadəsi dilimizdə işlənmədiyi halda təsviri sənətdə mahiyyətcə multikultural dəyərlərə istinad edən çoxlu sayda əsər görmək mümkündür. Müasir dövrdə isə vəziyyət əksinədir: multikulturalizm ifadəsi geniş yayıldığı halda rəssamların yaradıcılığında xarici tematika aktuallığını itirmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- Azərbaycan təsviri sənətində multikulturalizmin tarixi-bədii köklərinin araşdırılması;

- Xarici tematika ilə multikulturalizm mövzusunun fərqlərinin diqqətə çatdırılması;

- Klassik sənət nümunələrinin multikulturalizm müstəvisində yenidən mənalandırılması;

- Azərbaycanda yaşayan digər millətləri təmsil edən rəssamların yaradıcılığında milli dəyərlərin tədqiq edilməsi;

- Müasir incəsənətdə multikultural təfəkkürün tarixən mili şüur və mentalitetlə bağlı olmasının əsaslandırılması;

- Xarici rəssam və heykəltəraşların yaradıcılığında Azərbaycan mövzusunun araşdırılması;

- Multikulturalizm təmayüllərinin azərbaycançılıq və dövlətçilik ideyaları ilə əlaqələndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Hazırkı dissertasiya Azərbaycan təsviri sənətində multikulturalizm təzahürləri mövzusunda yazılmış ilk irihəcmli elmi-tədqiqat əsəridir. İlk dəfə olaraq rəssam və heykəltəraşların yaradıcılığında multikulturalizm təmayülləri geniş müstəvidə təhlil edilmiş, bu məqsədlə aşağıdakı istiqamətlər üzrə tədqiqat işi aparılmışdır:

- Azərbaycan rəssam və heykəltəraşlarının xarici mövzuda olan əsərləri milli tolerantlıq və Şərq-Qərb bədii ənənəsi kontekstində öyrənilmişdir;

- Azərbaycanda yaşayan digər millətləri təmsil edən rəssamların yaradıcılığında milli tolerantlıq və multikultural dəyərləri əks etdirən cəhətlər üzə çıxarılmışdır;

- Xarici rəssamların Azərbaycan mövzusundakı əsərləri öyrənilmiş, milli xarakterin təcəssümü əsaslandırılmışdır;

- Azərbaycan heykəltəraşlarının xaricdə olan və özündə ümumbəşəri dəyərləri, tolerantlığı və xalqlar dostluğunu təcəssüm etdirən əsərləri tədqiqata cəlb edilmişdir.

Dissertasiyada özünü büruzə verən başqa bir elmi yenilik artıq bəlli olan və sənətşünaslıqda kifayət qədər öz təhlilini tapan sənət əsərlərinin yeni kontekstdə - multikulturalizm kontekstində dəyərləndirilməsidir. Dissertasiyada klassik nəsli təmsil edən rəssamların – M.Abdullayevin, T.Salahovun, T.Tağıyevin, K.Kazımzadənin, S.Salamzadənin, Ə.Rzaquliyevin və başqalarının yaratdığı əsərlər multikulturalizm müstəvisində tədqiq olunmuş, onların məzmununda yeni nüanslar aşkarlanmış və təhlil edilmişdir.

Qeyd olunan bu cəhətləri aşağıdakı müddəalar formasında ifadə edə bilərik:

- Dissertasiyada ilk dəfə olaraq Azərbaycan təsviri sənətində multikulturalizm sistemli, ardıcıl surətdə və irimiqyaslı elmi-tədqiqat əsəri olaraq nəzərdən keçirilir;
- Dissertasiyada multikulturalizm xüsusiyyətləri hələ bu ifadənin mövcud olmadığı dövrdə - ötən əsrin ortalarında və ikinci yarıcında yaradılmış əsərlərə də şamil edilmişdir;
- Multikulturalizm tematikası təsviri sənətin hər üç növünü eyni dərəcədə əhatə edir;
- Təhlil edilən əsərlər həm də müasirlik və milli özünəməxsusluq müstəvisində nəzərdən keçirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada XX əsrin ikinci yarısı və XXI əsrin əvvəli Azərbaycan incəsənətindən bəhs olunur. Bu baxımdan ondan müasir incəsənət tarixini əks etdirən dərslik kimi istifadə etmək olar. Bu da qeyd edilməlidir ki, hazırda əksər ali məktəblərdə multikulturalizm fənni tədris olunur. Dissertasiya bu fənn üçün də yararlıdır. Deməli ondan həm mədəniyyət və incəsənət profilli ali təhsil müəssisələrində, misal üçün, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Bakı Xoreoqrafiya Akademiyasında, Bakı Musiqi Akademiyasında “Təsviri sənət tarixi” fənni üçün, həm də ixtisasdan asılı olmayaraq digər universitetlərdə “Multikulturalizm” fənni üçün dərslik kimi istifadə etmək olar.

Dissertasiya həm də təsviri sənət, kulturologiya, estetika və s. sahələrdə elmi-tədqiqat işi aparan tədqiqatçılar üçün elmi mənbə rolunu ifa edə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun “Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika” şöbəsində müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur. Dissertasiyanın ayrı-ayrı müddəaları və elmi nəticələri müəllifin nəşr etdirdiyi məqalələrdə öz əksini tapmışdır. İddiaçı həmçinin bir neçə beynəlxalq və respublika elmi konfranslarında mövzu üzrə məruzə etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** AMEA-nın Memarlıq və İncəsənət İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, altı paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, əlavə və illüstrasiyaların siyahısından ibarətdir. Giriş – 12.965, 1.1. – 40.862, 1.2. – 51.091, 2.1. – 19.296, 2.2. – 25.882, 3.1. – 31.779, 3.2. – 40.086, Nəticə - 6.496 olmaqla ümumilikdə 228.477 şərti işarədən ibarətdir. Şəkillər ayrıca əlavədə təqdim olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqat işinin məqsəd və vəzifələri, onun öyrənilmə dərəcəsi, elmi yeniliyi, metodoloji əsasları, sərhədləri, həmçinin nəzəri-praktiki əhəmiyyəti qeyd olunmuş, aprobasiyası, quruluşu və ümumi həcmi haqda məlumatlar verilmişdir.

Dissertasiyanın **Birinci fəsli "Rəngkarlıqda Azərbaycan tolerantlığı Qərb ilə Şərqin mənəvi dəyərləri kontekstində"** adlanır. Bu fəsildə incəsənətdə multikultural məzmun təsviri sənətin üç əsas növündən biri olan rəngkarlıq nümunəsində tədqiqata cəlb edilib. Birinci fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"Xarici tematika multikultural təfəkkürün daşıyıcısı kimi"** adlanır və XX əsrin ikinci yarısında yaradılmış müxtəlif sənət nümunələrinin təhlilini əhatə edir.

Azərbaycan incəsənətində xarici tematikanın multikultural müstəvidə əks olunduğu ən zəngin və maraqlı əsərlər seriyasının yaradıcılarından biri SSRİ Xalq Rəssamı Mikayıl Abdullayevdir. M.Abdullayev öz rəngarəng yaradıcılığı ilə XX əsr Azərbaycan təsviri sənətini inkişaf etdirən rəssamlardandır.[14] Zəngin kolorit duyumu, incə, həzin lirika onun tablolarının əsas cəhətlərindəndir. Rəssam mənzərə, portret, məişət və digər janrlarda gözəl əsərlər yaratmışdır.[15] Sənətkar bir çox xarici ölkələrdə, o cümlədən Hindistanda yaradıcılıq ezamiyyətində olmuş, hind və Azərbaycan

---

14 Габибов, Н.Д. Изобразительное искусство Азербайджанской ССР / Н.Д.Габибов – Баку: Азернешр, – 1959 – 20 с.

15 Попова, Э. Микаил Абдуллаев / Э.Попова – Москва: Советский художник, – 1973.

xalqlarının tarixi, maddi mədəniyyəti, məişəti arasındakı oxşar cəhətləri görüb müşahidə etmişdir.

Hindistan seriyası M.Abdullayevin yaradıcılığında mühüm yer tutur. Onun fırçasının, palitrasının zənginliyi həqiqi Şərq əlvanlığının real ifadəçisi olan hind məişəti və koloriti vasitəsi ilə daha canlı, qabarıq əks edilib. Rəssam məhz rənglərin dili ilə hind xalqının adət-ənənələrini, milli psixologiyasını, məişətini və həyat tərzini bütün dolğunluğu ilə təcəssüm etdirməyə müvəffəq olmuşdur. Təsadüfi deyil ki, Hindistan seriyasına görə rəssam bir çox mükafatlara, o cümlədən beynəlxalq "Cavahirləl Nehru" mükafatına layiq görülmüşdür.[16] Həmin mükafatı ona o zaman (1970-ci ildə) Hindistanın baş naziri olan İndira Qandi şəxsən təqdim etmişdi.

Multikultural məzmuna malik xarici tematika Azərbaycan incəsənətinin ən tanınmış simalarından, vaxtılə Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti olmuş, xalq rəssamı Tahir Salahovun yaradıcılığında da dərin iz buraxmışdır. Tahir Salahov dünya miqyasında tanınan və sevilən rəssamlardandır.[17]

T.Salahovun xarici tematikası M.Abdullayevinkindən fərqlidir. Bu iki rəssamın xarici tematikasını müqayisəli tərzdə nəzərdən keçirməkdə əsas məqsəd həm iki tanınmış sənətkarın yaradıcılığını təhlil etmək, həm də onların daha çox fərqli xarakter daşıyan bədii-üslubi xüsusiyyətlərinə aydınlıq gətirməkdir. M.Abdullayevin Hindistan seriyası rəngarəng milli məzmun daşıyan, özündə multikulturalizm təmayülləri təzahür etdirən xarici tematika nümunəsidir. T.Salahovun xarici tematikası isə sanki klassik xarakter daşıyır və yaradıcılığının hələ erkən mərhələsində formalaşan "sərt üslub"un təsirinə məruz qalmışdır.[18] M.Abdullayev daha çox məişət-tematik lövhələrə meyl etdiyi halda T.Salahovda bunun əksini görürük. Rəssam sadə adamlar ilə yanaşı, şəhər mənzərələrini,

[16] Алиева, С. История искусства в произведениях одного художника (в Баку открылась выставка, посвященная 90-летию Микаила Абдуллаева) [Elektron resurs] / URL: http://www.anl.az/down/meqale/zerkalo/2011/dekabr/219203.htm

[17] Осмоловский, Ю.Э. Таир Салахов / Ю.Э.Осмоловский – Москва: Советский художник, – 1972.

[18] [Elektron resurs] / URL: https://www.tretyakovgallery.ru/ru/calendar/exhibitions/exhibitions6105/

xüsusən məşhur tarixi-memarlıq abidələrini əks etdirməyə meyllidir. M.Abdullayev Hindistan kimi qədim tarixi-memarlıq abidələri ilə zəngin olan bir diyarda demək olar ki, həmin mövzuda əsər işləmədiyi halda T.Salahov həm tarixi abidələri ("Müqəddəs Fransis Assiz məbədi"), həm də yeni dövrdə tikilmiş binaları ("Berqamo meydanı") eyni həvəs və üslubda əks etdirir.[19]

Ötən əsrin 60-70-ci illərində yaradıcılığında müsəlman ölkələrinin həyatını əks etdirən rəssamlardan biri Tağı Tağıyev olmuşdur.[20] Rəssamın miras qoyub getdiyi zəngin bədii irsin xeyli hissəsini xarici ölkələr seriyası təşkil edir. Bu seriyanın müəyyən qismi müsəlman ölkələrinə aiddir. Maraqlıdır ki, Tağı Tağıyevin yaradıcılığında islam dünyası mövzusu əsasən Afrika ölkələri timsalında öz əksini tapır. Tağı Tağıyev həm Şimali Afrikanın ərəb ölkələrində, həm də ekvatorial Afrikada yaradıcılıq ezamiyyətlərində olmuş azsaylı rəssamlarımızdandır. *"1961-ci ildə Tağı Tağıyev Qərbi Afrika ölkələrinə yaradıcılıq ezamiyyətinə gedir. O, Mərakeş, Qvineya, Seneqal, Fil Dişi Sahilinə səfər edir".*[21] Bu ezamiyyətlərin təsiri altında rəssam yağlı boya ilə bir sıra tablolar yaratmışdır ki, onlar bu gün XX əsr Azərbaycan təsviri sənətinin layiqli nümunələri kimi dəyərləndirilir.

Ərəb ölkələri seriyası istedadlı fırça ustası Salam Salamzadənin də yaradıcılığında daha geniş təmsil olunmuşdur. Təsadüfi deyildir ki, o, 1974-cü ildə Nasir adına Beynəlxalq mükafat laureatı adına layiq görülmüşdü.[22] Ötən əsrin 60-70-ci illərində Azərbaycan təsviri sənətində ərəb tematikasının ideya-bədii, məzmun və kolorit etibarılə ən parlaq nümunələrinin yaradılmasında S.Salamzadə yaxından iştirak etmişdir.[23] Onun Misir, İraq və başqa ərəb ölkələrinə etdiyi səfərlər çoxsaylı tablolarda təcəssüm olunan ərəb seriyasının

---

[19] Tahir Salahov. [İzomaterial] / - Bakı: İndiqo, – 2008.

[20] Əfəndiyev, T.İ. Mədəniyyətdə tarixilik və müasirlik / T.İ.Əfəndiyev. – Bakı: Təhsil, – 2011, – 391 s.

[21] Quliyeva, G. Tağı Tağıyev. Sərvət. - Bakı: Şərq-Qərb, – 2013, – 104 s.

[22] [Elektron resurs] / URL: http://shamakhi-encyclopedia.az/salamzad%C9%99-salam-%C9%99bdulqasim-oglu/

[23] [Elektron resurs] / URL: https://ochagsamara.wordpress.com/tag/salam-salamzad%C9%99/

yaranmasına səbəb olmuşdur. Yağlı boya ilə işlənmiş bu əsərlər içərisində mənzərə, tematik və portret janrları üstündür.

**Birinci fəslin ikinci paraqrafı "Müstəqilik dövrü təsviri sənətində milli özünəməxsusluğun əks etdirilməsi"** adlanır. Adından göründüyü kimi, həmin paraqrafda ötən əsrin 80-ci illəri – müstəqillik dövrü əsas tədqiqat mərhələsi kimi müəyyən edilib. Bu dövr multikultural ənənələrin varlığı baxımından maraqlı, əsərlərlə zəngin bir dövrdür. Həmin dövrdə rəssamların yaradıcılığında psixoloji portretə maraq nisbətən azalmış, tematik mahiyyət, məzmun isə əksinə, inkişaf etmişdir. Həmçinin mənzərə janrı, əvvəllərdə olduğu kimi, geniş yayılması ilə diqqəti cəlb edir.

Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü olmuş Tahir Salahovun bir çox portretlərində multikultural mahiyyət güclüdür. Bu, istedadlı violonçel ustası, əslən Bakıdan olan rusiyalı sənətkar Mstislav Rostropoviçin portretində özünü aydın büruzə verir. Bunu aşağıdakı formulalar vasitəsilə ifadə etmək olar:

- Azərbaycan rəssamı Azərbaycan sənətkarının şəklini çəkib;
- Azərbaycan rəssamı dünya sənətkarının şəklini çəkib;
- Dünya rəssamı Azərbaycan sənətkarının şəklini çəkib;
- Dünya rəssamı dünya sənətkarının şəklini çəkib.

Bu düsturlar multikultural məzmunu müxtəlif kontekstlərdə əks etdirir və portret janrında onun çoxplanlı, çoxmüstəvili modelini yaradır.

İstedadlı fırça ustası Oqtay Sadıqzadənin yaradıcılığında multikultural məzmun həm rəngkarlıqda, həm də qrafikada təcəssüm olunur. Rəssamın xarici bədii ədəbiyyat nümunələrinə çəkdiyi çoxsaylı illüstrasiyalar qrafikaya, yağlı boya ilə işlədiyi dəzgah və monumental xarakterli əsərləri isə rəngkarlığa aiddir. Bir sıra hallarda O.Sadıqzadənin yaradıcılığındakı multikultural mahiyyət portretlər vasitəsilə öz əksini tapır.

90-cı illərdə rəssam Azərbaycan və dünya mədəniyyətini əks etdirən silsilə yaratmışdır. Seriya "Nizami və dünya mədəniyyəti" adlanır. Xalqımıza xas olan böyük mədəniyyət, zəngin mənəviyyat bəşər sivilizasıyasınn nailiyyətləri ilə qarşılıqlı surətdə təcəssüm etdirilməklə, multikultural baxışları ifadə edir.

Seriyaya çoxfiqurlu kompozisiyalar daxildir. Maraqlıdır ki, çoxfirurlu olmasına, böyük zəhmət tələb etməsinə baxmayaraq O.Sadıqzadə onları sulu boya ilə deyil, yağlı boya ilə işləmişdir. Çünki bu kompozisiyalar Nizami muzeyinin bədii tərtibatı kimi düşünülmüşdü. *"Rəssam böyük hazırlıq işləri görür, Nizaminin dövrü, o dövrün memarlığı, incəsənəti, geyimləri barədə çoxsaylı material toplayırdı. Bu monumental əsərdə antik və İntibah dövrlərindən başlamış XX əsrə qədərki dahi filosofların, musiqiçilərin, şairlərin, rəssamların 43 fiquru Nizamini əhatə edir".*[24]

Azərbaycan multikultural dəyərlərə və tolerantlığa hörmət edən ölkələrdəndir. Bu, təkcə müasir Azərbaycana aid deyil. Azərbaycan xalqı əvvəllər də digər xalqların mədəniyyətinə hörmətlə yanaşmış, ölkəmizə gələn əcnəbiləri qonaqpərvərliklə qarşılamışlar. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda olmuş əcnəbi səyyahlar öz yol qeydlərində bunu dəfələrlə xatırlamışlar. Onların arasında görkəmli fransız yazıçısı Aleksandr Düma (ata) da olmuşdur. Məlum olduğu kimi, Düma 1858-ci ildə Qafqazda olmuş, Bakını, Şamaxını, Azərbaycanın digər yerlərini gəzmişdir. Düma Bakıda olduğu zaman burada şairə Xurşudbanu Natəvanla görüşmüş, şairə yazıçıya öz əl işlərindən bir neçəsini hədiyyə etmişdi.

Düma Bakıda olarkən onun Xurşudbanu Natəvanla şahmat oynaması faktı çoxlarına məlumdur. 26 yaşlı Natəvan məşhur fransız yazıçısını mat etmiş, ona qalib gəlmişdi. Bu məqam rəssamların da diqqətini cəlb etmişdir. Ümumiyyətlə, Natəvan mövzusu və obrazı Azərbaycan təsviri sənətində geniş yayılmışdır. Oqtay Sadıqzadə, Altay Hacıyev və bir çox başqaları Natəvan obrazına müraciət etmişlər. Bu tendensiya müstəqillik dövrü rəssamlığında da inkişaf etdirilir.

Natəvanın şahmat oyununda Dümaya qalib gəlməsi səhnəsi müasir rəssamlıqda əks olunub. Multukultural dəyərlərin maraqlı təcəssüm forması olan bu səhnə tanınmış rəssam Çingiz Mehbalıyevin yağlı boya ilə 2014-cü ildə çəkdiyi "Xurşudbanu Natəvan və Aleksandr Dümanın şahmat oyunu" adlı əsərində öz

---

[24] Mirzə, G. Oqtay Sadıqzadə. Sərvət. - Bakı: Şərq-Qərb, – 2013, – s. 48.

əksini tapmışdır. Əsərdə dramatik məqam – Natəvanın fransız qonağı mat etməsi təsvir olunub. Natəvan həlledici məqamda fiquru əlinə götürərək onu lazım olan xanaya qoymağa hazırlaşır və təbəssümlə yazıçıya baxır. Düma isə öz gücsüzlüyünü hiss edərək sakit baxışlarla şahmat taxtasına nəzər yetirir.

Vurğuladığımız kimi, müasir Azərbaycan təsviri sənətində multikulturalizm mövzusu çox geniş yayılmışdır. Bu mövzu özünü təsviri sənətdə ən müxtəlif aspektlərdə büruzə verir. Maraqlı cəhətlərdən biri də multikulturalizm mövzusunun respublikamızda yaşayan, milliyyətcə qeyri-azərbaycanlı olan rəssamların yaradıcılığında əks olunmasıdır. Hələ Sovetlər dönəmində Aleksandr Tixomirov, Oleq İbrahimov, Tatyana Ağababayeva, Gennadi Brijatyuk kimi sənətkarlar milli dəst-xətti realizm müstəvisində, bir qədər lirik-romantik səpkidə çox dolğun əks etdirmişdilər. Müasir dövrdə bu ənənə İrina Eldarova, İnna Kostina və başqalarının yaradıcılığında özünü büruzə verir.

Ölkəmizdə yaşayan qeyri-azərbaycanlı rəssamların yaradıcılığının əhəmiyyətli hissəsi tolerantlıq, multikulturalizm müstəvisində dəyərlərndirilə bilər. Çünki burada Azərbaycan həqiqətləri, Azərbaycan gözəllikləri azərbaycanlı olmayan rəssamlar tərəfindən əks etdirilir ki, bu da multikulturalizmin başqa bir tərəfidir. Buna da mütləq qeyd etmək lazımdır ki, Azərbaycan gözəlliklərinin tərənnümü qeyri-azərbaycanlı rəssamların yaradıcılığında dolğun və rəngarəng alınır. Sanki onlar azərbaycanlı olmadıqlarını bildiyindən xalqımızın milli-mədəni dəyərlərini daha dolğun, məsuliyyətlə əks etdirməyə çalışır və bir çox hallarda buna nail olurlar.

Dissertasiyanın **İkinci fəsli “Qrafika sənətində milli və transmilli dəyərlər”** adlanır. İkinci fəsil iki paraqrafı özündə birləşdirir. Birinci paraqraf **“Multikultural məzmun və xarakterin təcəssüm xüsusiyyətləri”** adlanır. Burada multikultural məzmunun qrafika sahəsində yaradılmış əsərlər vasitəsilə təcəssüm edilməsi ön plana çəkilir. Vurğulanır ki, ötən əsrin ikinci yarısında, xüsusən 60-80-ci illərdə qrafika sahəsində özündə multikultural ənənələr əks etdirən bir çox maraqlı sənət nümunələri yaradılıb. K.Kazımzadə, E.Rzaquliyev, N.Əbdürrəhmanov, Ə.Rzaquliyev, C.Müfidzadə və

başqalarının qrafika növündə yaratdığı əsərlər rəngkarlıq əsərləri ilə yanaşı Azərbaycan təsviri sənətinin zənginləşməsinə öz töhfəsini vermişdir.

Görkəmli fırça ustası Kazım Kazımzadənin bir rəssam kimi fəaliyyətində xarici tematika mühüm rol oynayır. Həm də bu tematika məhz multikultural dəyərlərin üzə çıxarılmasına xidmət edir. K.Kazımzadının xarici mövzuda olan əsərlərində multikultural məzmun iki formada özünü büruzə vermişdir:

- Xarici ölkədə Azərbaycanla bağlı abidələr;
- Xarici mədəniyyətlə Azərbaycan mədəniyyətini birləşdirən ortaq dəyərlər.

Rəssamın yaradıcılığında ərəb ölkələri təsvirləri əhəmiyyətli yer tutur. Zənnimizcə, "İraq lövhələri" seriyasına daxil olan rəsmlər maraqlı, çoxfiqurlu kompozisiyası ilə diqqəti daha çox cəlb edir. Həm də İraq tarixən Azərbaycanla sıx mədəni əlaqələrə malik olan ərəb ölkəsidir.

Kazım Kazımzadənin həmin seriyasından olan rəsmlərindən biri "Məhəmməd Füzulinin qəbri" adlanır (1973). Əsərdə Kərbəla şəhərinin sxematik görünüşlü, ilk baxışda ərəb memarlığına bənzəməyən binaları, küçələr, küçə ilə hərəkət edən insanlar və s. əks olunur. Sulu boya ilə işlənmiş bu tablo zəngin kolorit effektinə malikdir. Binaların gün tutmayan kölgəli fasadlarının tünd göy siluetləri cənub günəşinin başdan-başa parlaq sarı rəngə boyadığı səma fonunda daha aydın nəzərə çarpır. Böyük Azərbaycan şairinin qəbrinin təsviri əsəri multukultural məzmununu əks etdirir. İraqlılar Məhəmməd Füzuliyə böyük hörmətlə yanaşmış, onun ədəbi irsini özlərinə doğma hesab etmişlər. Şairin qəbrinin abad, səliqəli görünüşə malik olması məhz multikultural dəyərlərin təzahürüdür. Əsərdə bu cəhət qabarıq əks olunub.

Əməkdar rəssam Ələkbər Rzaquliyev bir çox qrafik seriyaların müəllifidir. Rəssamın yaradıcılığını milli mədəniyyətin bədii ifadə forması kimi dəyərləndirmək olar. Bu xüsusiyyət iki əsas istiqaməti özündə birləşdirir:

- Tarixi-memarlıq abidələrinin, küçə və meydanların əks etdirilməsi;
- Xalq məişəti, məşğuliyyəti və milli mədəniyyətinin təcəssümü.

Milli xarakter rəssamın 60-cı illərdə işlədiyi "Köhnə Bakı" silsiləsində özünü aydın büruzə verir. Köhnə şəhər, burada mövcud olan adət-ənənə, özünəməxsus mühit xarakterik süjetlər, səhnələr vasitəsilə əks olunub. Lokal mədəniyyətin qorunub saxlanılması baxımından Ə.Rzaruliyevin İçərişəhər rəsmləri müəyyən mənada C.Müfidzadənin Xınalıq rəsmləri ilə səsləşir. Hər iki seriyada lokal mədəniyyətlər öz fərqli xüsusiyyətləri ilə görüntüyə gətirilmişdir.

Xalq rəssamı E.Şahtaxtinskaya öz yaradıcılığında qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə istinad edən sənətkarından olmuşdur. Onun müraciət etdiyi qrafik seriyalar xalqlar arasında sülhün, əmin-amanlığın, qarşılıqlı etimad və dostluğun möhkəmləndirilməsinə yönəlmişdi: *"Xalqlar, ədavəti unudun", "Milyonlar, qucaqlaşın!" çağırışı insanları birləşməyə, onların enerjisini quruculuğa, sülhə, etik və mənəvi məcraya yönəltməyə çalışır".*[25]

Rəssamın "Bütün bəşəriyyətə" adlı qrafik silsiləsində təkcə Azərbaycanın deyil, dünyanın bir sıra xalqlarının tanınmış mədəniyyət xadimlərinin obrazları yaradılmışdır: *"Elmira Şahtaxtinskaya "Bütün bəşəriyyətə" silsiləsini məhz belə sənətkarlara həsr etmişdir. Bunlar Nizami, Nəvai, Rumi, Şekspir, Puşkin, Bethovendir".*[26]

Hələ Sovetlər dönəmində Bakıda bir çox xarici rəssamlar qonaq olmuş, Bakı mövzusunda müxtəlif əsərlər çəkmişlər. Bu əsərlərdə milli xarakter və məzmun qabarıq ifadə edilib. Həmin dövrdə multikulturalizm anlayışı yayılmasa da, bu əsərlərdə multikulturalizm ideyaları, Azərbaycan xalqının milli xarakteri, onun qonaqpərvərliyi, rəngarəng məişəti, səmimiyyəti öz əksini tapır.

1964-cü ildə görkəmli Danimarka qrafiki Herluf Bidstrup, 1972-ci ildə dünyaca məşhur Meksika monumentalçı rəssamı, "üç dahi meksikalı rəssam"dan biri – David Sikeyros, 1977-ci ildə görkəmli macar heykəltəraşı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü İştvan Kiş Bakıda qonaq olmuşlar. Bakı mövzusu onların yaradıcılığına yeni impuls vermişdir.

---

[25] Mirzə, G. Elmira Şahtaxtinskaya. Sərvət. - Bakı: Şərq-Qərb, – 2013, – s. 40.
[26] Yenə orada, s. 40.

Herluf Bidstrupun Bakı mövzusunda yaratdığı qrafik seriya realizmi, xəlqiliyi, həyatiliyi ilə seçilir. Bu qrafik rəsmlərdə azərbaycanlı xarakteri, Azərbaycan insanının xarici görünüşü olduqca dəqiq, realist səpkidə öz əksini tapmışdır. Herluf Bidstrup bu ağ-qara qrafik rəsmlərin əksəriyyətini bilavasitə naturadan – küçədə, bazarda, bulvarda işləyib. Məhz buna görə həmin rəsmlər canlı, həyati təsir bağışlayır.

**İkinci fəslin "Karikatura sənətində xalqlar dostluğu ideyasının tərənnümü"** adlanan ikinci paraqrafında karikatura sahəsində yaradılmış beynəlxalq məzmunlu əsərlər tədqiqata cəlb edilib. Məlum olduğu kimi, ötən əsrin ortalarından etibarən karikatura sahəsində beynəlxalq irtica qüvvələrini ifşa edən xalqların sülh, əmin-amanlıq, azadlıq arzularını dəstəkləyən bir çox dəyərli karikatura əsəri yaradılmışdır. Bu proses bu gün də davam edir. Paraqrafda bütün bunlar əsas elmi problem kimi tədqiqata cəlb olunmuşdur.

XX əsrin ikinci yarısında Azərbaycan karikaturasında multikulturalizm təmayülləri özünü daha çox aşağıdakı mövzularda əks etdirir:

- Beynəlxalq aləmdə müharibə qızışdırıcılarına qarşı mübarizə;
- Sülhün, əmin-amanlığın, tərki-silahın təbliği;
- Asiya, Afrika və Latın Amerikası xalqları ilə həmrəylik;
- Qarabağ hadisələrinin dünyanın diqqətinə çatdırılması;
- Azərbaycan müstəqilliyinin beynəlxalq miqyasda möhkəmlənməsi.

Qeyd olunan bu mövzular zaman etibarilə bir-birindən seçilir. Əgər birinci üç mövzu əsasən sovet dövrü üçün xarakterikdirsə, dördüncüsü SSRİ-nin süqutu və erkən müstəqillik dövrünə, sonuncusu isə əsasən müasir dövrə aiddir. Buradan aydın görünür ki, hər bir dövrün öz dünyagörüşünə uyğun, o dövr üçün aktual olan xarici tematikası vardır. Əlbəttə, karikatura sahəsində istənilən xarici mövzunu multikulturalizmin təzahürü kimi qəbul etmək olmaz. Zənnimizcə, multikultural mahiyyət əsasən qlobal təhlükələrin ifşası və dünya xalqları ilə həmrəylik mövzuları üçün daha xarakterikdir. Çünki burada həm bütövlükdə bəşəriyyətin taleyi üçün narahatlıq, həm də ayrı-ayrı xalqlarla dostluq, qardaşlıq həmrəylik ideyaları

ifadə olunur. Multikulturalizm həm də humanizmdən qaynaqlanır. Məhz bu səbəbdən multikulturalizmi humanizm ideyalarından təcrid edilmiş halda təsəvvür etmək çətindir. Əks təqdirdə o, özünün əsas dəyərini – insani keyfiyyətini itirərdi. Bu baxımdan qeyd olunan mövzuların məhz multikultural xarakterə malik olması göz qabağındadır.

Maraqlıdır ki, V.Ternavski, A.Elçin, P.Şandin, R.Quliyev, Z.Kərimbəyli, Ə.Zeynalov kimi ixtisaslı karikaturaçılarla yanaşı O.Sadıqzadə, S.Şərifzadə, D.Kazımov kimi rəssamlar da karikaturaya müraciət edirdilər. Bu, həmin dövrdə karikaturanın cəmiyyətdə ciddi qəbul edilməsinin, mədəni həyatda tutduğu nüfuzlu mövqeyinin göstəricisi idi. Həmin dövrdə əsasən "Kirpi" jurnalında çap olunan karikaturalar həm beynəlxalq həyatın, həm də ölkənin, respublikanın həyatının güzgüsü kimi səciyyələndirilirdi.

Müasir dövrdə beynəlxalq mövzularda maraqlı, həm güldürən, həm də düşündürən karikaturalarla çıxış edən istedadlı Azərbaycan rəssamlarından biri də Bayram Hacızadədir. Onun daha çox "Sözsüz" adı ilə təqdim olunan karikatura nümunələri müasir beynəlxalq aləmin ən ağrılı problemlərini gülüş hədəfinə alır. Rəssamın bir çox əsərləri Çin (2007), Serbiya (2007), Türkiyə (2015) Fransa (2016), Ukrayna (2016) və s. beynəlxalq karikatura müsabiqələrində mükafata layiq görülmüşdür.

Dissertasiya işinin **Üçüncü fəsli "Heykəltəraşlıqda multikulturturalizm təzahürləri və bədii ənənənin inkişafı"** adlanır. Bu fəsildə multikultural dəyərlərin təcəssümü plastik sənət kontekstində öz təcəssümünü tapır. Fəsil iki paraqrafı birləşdirir. Bunlardan birincisində klassik mərhələ (XX əsrin ikinci yarısı), ikincisində isə müstəqillik dövrü heykəltəraşlığı nəzərdən keçirilir.

Üçüncü fəslin birinci paraqrafı **"Bədii ənənədə multikultural dünyagörüşünün tarixi təkamülü"** adlanır. Paraqrafda Azərbaycan plastika sənətində multikultural məzmunun təşəkkül və inkişaf mərhələləri xarakterizə edilir.

50-70-ci illərdə F.Əbdürrəhmanov, C.Qaryağdı, M.Mirqasımov, T.Məmmədov, Ö.Eldarov, E.Hüseynova, İ.Zeynalov və başqa tanınmış heykəltəraşların yaradıcılığında xarici tematika

daha böyük çəkiyə malik idi. Multikultural məzmuna malik əsərlər həm monumental, həm də dəzgah heykəltəraşlığında yaradılırdı.

Azərbaycan heykəltəraşlığında multikultural ideyalar istedadlı tişə ustası, xalq rəssamı Fuad Əbdürrəhmanovun yaradıcılığında geniş təmsil olunub. Sənətkarın yaşayıb-yaratdığı dövrdə multikulturalizm sözü işlənməsə də, onun yaradıcılığında multikultural dəst-xətt və məzmun olduqca aydın nəzərə çarpır.

F.Əbdürrəhmanovun ilk məşhur əsərlərindən biri ölməz fars-tacik şairi Rudəkinin (858-941) monumental obrazıdır (1963). Şübhəsiz ki, bu heykəlin yaradılmasında Nizami obrazının müəyyən təsiri olmuşdur. Maraqlıdır ki, sakit, statik görünüşlü Nizamiyə nisbətən Rudəkinin obrazı daha mütəhərrik xarakter daşıyır. Azərbaycanlı sənətkar qardaş tacik xalqının böyük şair övladının plastik obrazını tükənməz həvəs və ilhamla işləmişdir. Nizami obrazı üzərində fəaliyyətini bir daha xatırlayan və ondan yaradıcılqla istifadə edən heykəltəraş fars-tacik şairi Rudəkinin obrazının psixologizmlərlə zəngin və daha ekspressiv alınmasına nail oldu. Həqiqətən də, Nizami ilə müqayisədə Rudəki daha emosional və ekspressiv təsir bağışlayır. Heykəltəraş hər iki surətin şəxsi keyfiyyətlərini onların plastik obrazlarında düzgün əks etdirə bilmişdir.[27]

İstedadlı tişə ustası Mirəli Mirqasımovun xarici tematikaya aid bir əsərinə diqqət yetirək. “Azadlıq” adlanan, bürüncdən hazırlanmış bu emosional, mütəhərrik kompozisiyada zəncirini qıran, müstəmləkə buxovlarından azad olan mətin surətli gənc afrikalı təsvir olunmuşdur. Həm ölçü, həm də ideya-bədii keyfiyyətlərinə görə müəllifin digər iki əsərindən xeyli üstün olan bu kompozisiya dövrün qlobal xarakterli siyasi hadisəsinə - Afrika qitəsinin müstəmləkəçilik zülmündən azad olmasına həsr edilib. Həmin illərdə bu mövzu sovet cəmiyyətində cox populyar idi. O dövrdə SSRİ yenicə müstəqillik əldə etmiş Afrika dövlətləri ilə dostluq etməklə orada kommunizm ideyalarını yaymağa, qara qitədə özünə ideoloji dayaq yaratmağa çalışırdı və müəyyən dərəcədə buna müvəffəq olmuşdu. Afrikanın müxtəlif ölkələrindən minlərlə gənc keçmiş

[27] [Elektron resurs] / URL: http://senet.az/heyk%C9%99lt%C9%99rasligimizin-banisi-fuad-%C9%99bdurr%C9%99hmanov/

SSRİ-nin müxtəlif şəhərlərində təhsil alır, öz milli iqtisadiyyatlarının inkişafı üçün vacib olan ixtisaslara yiyələnirdilər.

“Azadlıq” kompozisiyasında təsvir olunan mətin afrikalı surəti əzəmətli görkəmi, qətiyyətli hərəkəti ilə diqqət çəkir. O, ayaqlarını geniş açaraq sanki kəskin bir hərəkətlə biləklərindəki buxovları qırmışdır. Kəskin hərəkətdən afrikalının əlləri arxaya getmiş, qırılmış zəncir isə onun ətrafında sanki havada süzərək hələ yerə düşməyə macal tapmamışdır. Heykəltəraş kompozisiyanı belə çevik, mütəhərrik formada həll etməklə ona emosional dinamika, canlı hərəkət effekti daxil etmişdir. Gəncin inamlı baxışları, mətin duruşu onun azadlıq istəyinin ciddi, qətiyyətli, dönməz olmasından xəbər verir.

Dissertasiyanın üçüncü fəslinin ikinci paraqrafı **“Müasir plastik sənətdə tolerantlıq və dostluğun rəmzləri”** adlanır. Burada müstəqillik dövründə Azərbaycan plastik sənətində multikultural tematika özünəməxsus tərzdə işıqlandırılır.

Qeyd olunduğu kimi, ölkəmiz 30 ildən çoxdur ki, öz müstəqilliyini bərpa etmişdir. bu müddət ərzində respublikanın ictimai-siyasi, mədəni həyatında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər heykəltəraşlıq sahəsində xüsusilə aydın nəzərə çarpır. Belə ki, müstəqillik dövründə dünyanın bir çox tanınmış mədəniyyət, elm və dövlət xadimlərinə ölkəmizdə heykəllər qoyulmuşdur. Eyni zamanda Azərbaycan heykəltəraşlarının yaratdığı əsərlər dünyanın müxtəlif şəhərlərində ucaldılmışdır. Bu xüsusiyyətlər heykəltəraşlıq sahəsində müasir multikultural dəyərləri özündə ehtiva edir.

Görkəmli heykəltəraş, xalq rəssamı Akif Əsgərov şairə Xurşudbanu Nətavan ilə XIX əsrin görkəmli fransız yazıçısı Aleksandr Dümanın görüşünü əks etdirən maraqlı plastik kompozisiyanın müəllifidir. Biz hazırkı işin birinci fəslində rəssam Çingiz Mehbalıyevin eyni mövzuda olan rəngkarlıq əsərindən bəhs etmişdik. Həmin əsərdə onların şahmat oynaması təsvir olunur. Akif Əsgərovun yaratdığı plastik dəzgah əsərində də hər iki surət oturmuş vəziyyətdə təsvir olunub. Lakin onlar şahmat oynamırlar. Onların nəzərləri bir-birinə dikilmişdir. Dümanın baxışlarında Azərbaycan qadınının ləyaqətinə, zəkasına məftunluq, Natəvanın baxışlarında isə

özünə inam və təmkinlik hissləri əks olunur. Hər iki obrazın plastik həllində statik formalar, xarakterik jestlər (misal üçün, əllərin diz üstə qoyulması) üstündür.

Multikulturalizmin əsas təzahür formalarından biri xalqlar dostluğudur. Bu baxımdan Azərbaycanla Rusiya Federasiyası, onun ayrı-ayrı subyektləri ilə dostluq əlaqələri xüsusilə qeyd edilməlidir. Bu sırada Azərbaycanla Həştərxan vilayəti arasındakı dostluq münasibətləri nümunəvi xarakter daşıyır.

Xalq rəssamı, professor Natiq Əliyevin Bakı ilə Həştərxan şəhərlərinin dostluğuna həsr etdiyi əsər maraqlı kompozisiya həlli ilə diqqət çəkir. Əsər iki massiv hissədən ibarətdir. Bunlardan birində Bakı, digərində isə Həştərxan şəhəri əks olunub. Relyef heykəltəraşlığı formasında yaradılan bu kompozisiyada hər iki şəhərin məşhur tarixi-memarlıq abidələri, xarakterik cəhətləri yer alır. Forma və kompozisiya etibarilə bu əsəri Salxab Məmmədovun Qnezno şəhərində yerləşən Polşa-Azərbaycan dostluğu abidəsi ilə müqayisə etmək olar.

Qarabağ həqiqətlərinin dünya birliyinin diqqətinə çatdırılması Azərbaycan diplomatiyasının və mədəniyyət xadimlərinin mühüm vəzifələrindən biridir. Bu məqsədlə çox işlər görülmüşdür. Azərbaycan heykəltəraşlarının yaratdığı, Xocalı soyqırımını əks etdirən heykəllər dünyanın bir çox ölkələrində ucalmaqdadır.

Almaniyanın paytaxtı Berlin şəhərində Xocalı soyqırımına həsr edilmiş abidə ucalır (2011; müəlliflər: Salxab Məmmədov, Akif Əsgərov, Əli İbadullayev, İbrahim Əhrari). Abidə sxematik görünüşlü üç fiqurdan ibarətdir. Bunlar şərti olaraq ailəni – atanı, ananı və uşağı əks etdirir. Kompozisiyanın ümumi görünüşündə ekspressiv əhvali-ruhiyyə, dramatizm elementləri güclüdür.

Salxab Məmmədov və Əli İbadullayevin birlikdə hazırladıqları, Azərbaycan-Polşa dostluğunun rəmzi kimi çıxış edən monument diqqət çəkir. Abidə 2012-ci ildə, Polşanın qədim yaşayış yeri olan Qnezno şəhərinin mərkəzi meydanlarından birində ucaldılmışdır. Vaxtilə bu şəhər Polşa dövlətinin paytaxtı olmuşdur. Qnezno bu gün də Polşanın mühüm siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən hesab edilir.

Abidə maraqlı kompozisiya həlli ilə seçilir. Burada sanki üz-

üzə dayanmış iki yarpaq təsvir olunub. Tuncdan hazırlanmış kompozisiya, qara mərmərlə üzlənmiş, planda dördbucaqlı formada olan alçaq postamentin üzərində qurulmuşdur. Yarpaqlardan biri Azərbaycanı, digəri isə Polşanı təcəssüm etdirir. Yarpaqlar üzərində Ulu öndər Heydər Əliyevin və Roma papası, milliyyətcə polyak olan II Pavel İohannın sözləri həkk edilmişdir.

Vurğuladığımız kimi, abidənin ideya-estetik əsasında Polşa və Azərbaycan xalqlarının, dövlətlərinin dostluğu dayanır ki, bu da multikulturalizmin parlaq təzahürlərindən biridir. Üz-üzə dayanmış yarpaqlar sanki söhbətləşərək bir-birinə ruh verir və müsbət enerji ötürürlər. Ümumiyyətlə, iki xalqın, yaxud ölkənin dostluğundan, multukultural dəyərlərindən bəhs edən kompozisiyaların iki hissəli olması müasir plastik sənətlərdə geniş yayılmışdır. Vaxtilə mərhum sənətkar, keramika ustası Zahid Hüseynovun Bakı-Ceyhan neft kəmərinə həsr etdiyi kompozisiyada iki alma təsvir edilmişdi. Bunlardan biri rəmzi olaraq Azərbaycanı, digəri isə Gürcüstanı ifadə edirdi. Xalq rəssamı Natiq Əliyevin yuxarıda xatırladığımız, Həştərxan və Bakı şəhərlərinin dostluğuna həsr edilmiş kompozisiyası da iki hissədən ibarətdir. Eyni tipli ikili plastik kompozisiya xalqlar dostluğunun və multikultural dəyərlərin bədii təcəssümü üçün uğurlu kompozisiya formasıdır və Salxab Məmmədov öz həmkarı ilə birlikdə bu formanı yaradıcılıqla inkişaf etdirərək yeni sənət nailiyyətinə imza atmışdır.

Salxab Məmmədovun başqa bir əsəri "Düşüncələrimiz və istəklərimiz" adlanır. Tuncdan hazırlanmış bu kompozisiya 2017-ci ildə İsveçrənin Cenevrə şəhərinin mərkəzi meydanlarından birində qoyulmuşdur. Əsər, Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzv olmasının 25 illiyinə həsr edilib. Əsərin məhz Cenevrədə ucaldılması təsadüfi deyil. Məlum olduğu kimi Birləşmiş Millətlər Təşkilatının sələfi olan Millətlər Cəmiyyəti vaxtilə bu şəhərdə fəaliyyət göstərmişdir. Cenevrə həm də mühüm beynəlxalq görüşlərin keçirildiyi, sazişlərin bağlanıldığı şəhərlərdəndir. Azərbaycanlı heykəltəraşın əsərinin məhz burada ucaldılması məntiqəuyğun və qürurvericidir.

Tuncdan hazırlanmış heykəlin kompozisiyası yığcam və sadədir. Burada əllər üzərində bərqərar olmuş yer kürəsi təsvir edilib.

Yer kürəsinin əllər üzərində dayanması bir neçə maraqlı rəmzi məna daşıyır. Əvvəla bu, yer kürəsinin hamımızın, bütün bəşəriyyətin ümumi evi olduğuna işarədir. İkincisi, əllər müxtəlif xalqları, millətləri təcəssüm etdirir ki, bu da BMT-nin mahiyyətini ifadə edir. Nəhayət üçüncüsü, dünyanın nə qədər qayğıya möhtac olmasını göstərir. Əgər əllər arasında ixtilaf olarsa, onlar bir-birindən aralanar, müharibələr baş verər və dünyamız "yerə düşərək" tələf olar. Əsər müxtəlif xalqların bir araya gəlməsi, bir-birinə etimad göstərməsi, ümumi evimiz olan dünyanın bütün gözəlliklərini qorumağa çalışması arzusunu ifadə edir.

**Nəticədə** Dissertasiyada Azərbaycan təsviri sənətində multikulturalizm xüsusiyyətləri ardıcıl surətdə nəzərdən keçirilmiş, qiymətləndirilərək təhlil edilmişdir. Bununla da aşağıda qeyd olunan əsas nəticələrə gəlinmişdir:

- Azərbaycan təsviri sənətində multikulturalizm ənənələri qədim köklərə malikdir. Lakin problemin qoyuluşuna daha konkret yanaşıldıqda, multikultural dəyərlərin XX əsrin ortalarından etibarən təsviri sənətdə daha geniş və ardıcıl yayılması qənaətinə gəlmək olar;
- Multikulturalizm ilə xarici tematika arasında şübhəsiz ki, müəyyən əlaqələr vardır. Lakin xarici mövzuda çəkilmiş hər bir rəssamlıq əsərini multikultural dəyərlərin təzahürü kimi qiymətləndirmək olmaz. Xarici mövzuda işlənmiş rəsm əsərinin multikultural məzmun kəsb etməsi üçün onda təsvirin milli xarakteri, milli simvolika və atributlar əhatəli təsvir edilməli, başlıcası isə, müəllifin bu bədii elementlərə səmimi münasibəti, sevgisi və etimadı öz ifadəsini tapmalıdır. Yalnız bu halda əsəri tam mənada multikultural məzmuna malik əsər kimi qiymətləndirmək olar;
- Təsviri sənət əsərinin multikultural məzmun kəsb etməsi üçün növ, janr və tematika məhdudiyyəti yoxdur. İstənilən növ, janr və mövzuda multikultural dəyərlər əks etdirən əsərlər yaratmaq olar. Azərbaycan rəssamlarının yaradıcılığında bu prinsipi aydın görüb dərk etmək mümkündür;
- Azərbaycanda yaşayıb yaradan digər millətlərdən olan rəssamlar milli incəsənətin inkişafına böyük töhfələr vermişlər. Onların yaradıcılığı azərbaycançılıq ideyalarının bədii mədəniyyət sahəsində inkişafına xidmət edir və toleratnlığın, xalqlar dostluğunun

təcəssümü kimi qiymətləndirilir;

- Azərbaycan təsviri sənətində, xüsusən rəngkarlıq və qrafikada multikultural dəyərlərdən bəhrələnən əsərlərin yaradılması daha çox XX əsrin ortalarına və ikinci yarısına aiddir. Müstəqillik illərində multikulturalizm ölkəmizin ictimai həyatında geniş yayılmışdır. Müasir təsviri sənətdə o, çoxsaylı əsərlərlə təmsil olunub. Bu, şübhəsiz ki, zəmanəmizdə ictimai-siyasi hadisələrin mədəni həyata aktiv təsiri ilə əlaqədardır;

- Azərbaycanda olmuş xarici ölkə rəssamlarının respublikamızla bağlı yaratdığı əsərlər mövzu baxımından diqqəti cəlb edir. Bu əsərlərin bəzilərində milli məzmun və xarakter dolğun ifadə olunmuşdur;

- Lakin xarici tematikanın aktuallığını itirməsi, ezamiyyələrin olmaması təsviri sənətdə multikulturalizm təmayüllərinin itməsi kimi qəbul edilə bilməz. Bir çox Azərbaycan rəssam və heykəltəraşının (O.Sadıqzadə, S.Məmmədov, A.Sadıqzadə, N.Əliyev, G.Babayev, E.Zeynalov və b.) yaradıcılığının xaricdə geniş populyarlıq qazanması məhz müstəqillik dövrünün imkanları sayəsində mümkün olmuşdur;

- Müasir dövrdə təsviri sənətdə multikulturalizm ötən əsrlə müqayisədə xeyli dəyişmiş, müasir xüsusiyyətlər kəsb etmişdir;

- Təsviri sənətdə multikulturalizm Azərbaycan dövlətinin siyasətini bədii vasitələrlə əks etdirməklə onun maraqlarına xidmət edir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin nəşr edilmiş aşağıdakı məqalə və tezislərində öz əksini tapıb:**

1. Mədəniyyətimizin böyük dühası. “Heydər Əliyevin mədəniyyət konsepsiyası”. Elmi-nəzəri konfrans. ADMIU. Bakı, may 2015. s.135-137.
2. Azərbaycan təsviri sənətində xarici tematika. (X.Səfərova, E.Şahtaxtinskaya və B.Mirzəzadənin yaradıcılığında). Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. Azərbaycan Xalça Muzeyi. № 20. Bakı, 2017. s. 87-92.
3. Ötən əsrin 50-70-ci illərində Azərbaycan rəssamlarının yaradıcılığında xarici tematika (M.Abdullayev və T.Salahovun

yaradıcılıq nümunəsində). İncəsənət və Mədəniyyət problemləri. AMEA Memarlıq və İncəsənət İnstitutu. №1 (59). Bakı, 2017. s. 106-114.
4. Azərbaycan rəssamlarının yaradıcılığında islam ölkələri. İncəsənət və Mədəniyyət problemləri. AMEA Memarlıq və İncəsənət İnstitutu. № 3 (61). Bakı, 2017. s. 96-104.
5. Multikultural təfəkkürün karikatura janrında təcəssümü. Mədəniyyət dünyası. ADMİU. XXXIV. Bakı, 2017. s. 212-217.
6. Ötən əsrin 50-70-ci illərində Azərbaycan heykəltəraşlığında multikulturalizim ideyalarının təzahürü. Sənət Akademiyası. BXA. № 1(4). Bakı, 2018. s. 78-82.
7. Heykəltəraş Fuad Əbdürrəhmanovun xarici tematikası multikulturalizm kontekstində // İncəsənət və Mədəniyyət problemləri. AMEA Memarlıq və İncəsənət İnstitutu. № 2, (64). Bakı, 2018. s. 77-85.
8. Heydər Əliyevin dövlətçilik təlimində müasir Azərbaycan incəsənətinin milli-mənəvi sərvətləri. "Milli mədəni dəyərlərin qorunmasında və təbliğində Heydər Əliyev fenomeni". V respublika elmi-praktiki konfrans. BXA. Bakı, 08 may 2018. s. 35-37.
9. Зарубежная тематика в творчестве Таира Салахова (постсоветский период) // Traditional and modern culture: history, actual situation, prospects. VIII international scientific conference. Prague, September 20-21 2018. c. 6-11.
10. Мультикультурализм в изобразительном искусстве Азербайджана (в 50-70-х годах прошлого века). Znanstvena misel. №25. Ljubljana, 2018. c.14-19.
11. Тема Востока в творчестве художников Азербайджана (в 50-80-х годах XX века). Манускрипт. Том 14. № 5. 2021. c.1013-1019.
12. Зарубежная тематика в творчестве азербайджанских художников Беюкага Мирзазаде и Ваджихи Самедовой в контексте мультикультурализма. «Искусство глазами молодых». XVI Международная научная конференция. СГИИ им. Дмитрия Хворостовского. ХГИК. Красноярск. 11-12 апреля 2024. c. 69-72.

Dissertasiyanın müdafiəsi 12 sentyabr 2024-cü il tarixində saat 11:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 11 iyul 2024
Kağızın formatı: A5
Həcm: 39.403
Tiraj: 100